

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (21.556)

9 avqust 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Söhbət zamanı Azərbaycan, İran və Rusiya dövlətləri başçılarının ilk üçtərəfli görüşünün əhəmiyyəti qeyd edilib. Ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından bu görüşün önəmi vurğulanıb.

Görüşdə əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşü keçirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış ediblər.

Sonda dövlət başçılarının Bəyannaməsi imzalanıb.




## Naxçıvanda təbiətə qayğı ilə yanaşılır





Muxtar respublikada ətraf mühitin qorunması sahəsində ardıcıl tədbirlər görülür, yaşıllıqların sahəsi ilbəil artırılır. Keçirilən iməciliklər zamanı uzun müddət istifadə olunmayan torpaq sahələrində yeni meyvə bağları salınır. Hər il iməciliklər yolu ilə salınmış bağlardan min tonlarla meyvə tədarük edilir. Torpaq, yurd sevgisinin, ətraf mühitə və təbii sərvətlərə qayğının daha bir ifadəsi olan iməciliklər isti yay günlərində də davam etdirilir.

Avqustun 6-da Naxçıvan Muxtar Respublikasında növbəti iməciliklər keçirilmiş, yaşıllıq zolaqları və meyvə bağlarına qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafında və yaxınlıqdakı terras üsulu ilə salınmış meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

Uzun müddət əkilməyən 10 hektar ərazidə yaz aylarında terras üsulu ilə 3 minə yaxın müxtəlif meyvə tingləri əkilmiş, damcılı suvarma sistemi quraşdırılmışdır. İməcilik iştirakçıları meyvə tinglərinə aqrotexniki qulluq göstərmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, payız aylarında ərazidə üzüm tinglərinin əkilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Gömrük orqanları birinci yarımili uğurla başa vurub

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində 2016-cı ilin birinci yarısında görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da ümummilli liderimizin quruculuq xəttinin uğurla davam və inkişaf etdirilməsi nəticəsində bütün sahələrdə dinamik inkişaf tempinin qorunub saxlanıldığını deyib.

Qeyd olunub ki, hərtərəfli inkişaf və tərəqqi ilə müşayiət olunan ilk yarımildə muxtar respublika gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin qorunması və hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi, yerli istehsal sahələrinin dəstəklənməsi, ixracın stimullaşdırılması istiqamətində mühüm işlər görülüb.

Muxtar respublikada aparılan genişmiqyaslı abadlıq-quruculuq və yenidənqurma işlərinin gömrük sistemini də əhatə etdiyini deyən komitə sədri vurğulayıb ki, cari ilin birinci yarısında gömrük xidmətinin modernləşməsi, yüksək iş və xidmət şəraitinin yaradılması istiqamətində tədbirlər davam etdirilib. Sədərək sərhəd-keçid məntəqəsi üçün 18 hektara yaxın ərazidə "bir dayanacaq" prinsipinə uyğun qurulan müasir gömrük kompleksinin inşaat işləri çərçivəsində yük xətti və anbarların, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binanın, rüsumsuz ticarət mağazasının, yeməkxananın tikintisi əsasən yekunlaşdırılıb.

Vurğulanıb ki, hesabat dövrü ərzində iş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi xüsusilə diqqətdə saxlanılıb. May ayının əvvəlindən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin elektron bəyannamə sistemi vasitəsilə həyata keçirilməsinə başlanılıb, bununla da, bəyanetmə proseduru tam sadələşdirilib.

Bildirilib ki, büdcənin formalaşdırılması istiqamətində 2016-cı ilin birinci yarısı üçün müəyyən olunmuş 3 milyon 372 min manata qarşı 4 milyon 788 min 293 manat vəsait toplanaraq proqnoz-tapşırığa 142 faiz əməl olunub. Gömrük orqanları tərəfindən hesabat dövrü ərzində büdcəyə köçürülmüş vergi və rüsumlar Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 13,7 faizini təşkil edib.

Muxtar respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm göstəricisi olan xarici ticarət dövriyyəsinin vəziyyəti təhlil olunarkən qeyd edilib ki, hesabat dövründə 31 ölkə ilə ticarət əməliyyatları aparılıb. Xarici ticarət dövriyyəsində ixracın həcmi 188 milyon 250 min 600 ABŞ dolları, idxal əməliyyatlarının həcmi isə 18 milyon 847 min 400 ABŞ dolları olub, idxal-ixrac əməliyyatları üzrə 169 milyon 403 min 200 ABŞ dolları dəyərində müsbət saldo yaranıb. Xarici ticarət dövriyyəsinin 9,1 faizini idxal əməliyyatları, 90,9 faizini isə ixrac əməliyyatları təşkil edib.

Muxtar respublikada iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi məqsədilə qəbul olunmuş dövlət proqramlarının icra vəziyyətindən və daxili bazarın qorunması istiqamətində görülmüş işlərdən də danışan Asəf Məmmədov qeyd edib ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi, daxili bazarın qorunması, ixracın stimullaşdırılması iqtisadi inkişafın əsas istiqamətləri kimi müəyyənləşdirilib.

Cari ilin əvvəlindən Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən muxtar respublikaya idxal olunan kənd təsərrüfatı məhsullarının genetik modifikasiyasının yoxlanılmasına başlanılıb. Bu məqsədlə idarədə Türkiyə Respublikasından dəvət olunmuş mütəxəssisin rəhbərliyi ilə kurslar təşkil olunub, əməkdaşlar genetik modifikasiyaya məruz qalmış kənd təsərrüfatı və ərzaq məhsullarında transgenləri təyin etməyi öyrənərək sertifikatlar alıblar.

Hesabat dövrü ərzində idxal məhsullarının keyfiyyətinə nəzarət diqqət mərkəzində saxlanılıb, keyfiyyət göstəricilərinin təyini ilə bağlı 288 adda, ümumilikdə, 2469 ton məhsuldan alınmış prob və nümunələr ekspertizadan keçirilib.

2016-cı ilin birinci yarısı ərzində idxal istiqamətində gətirilən 13,5 tondan artıq kənd təsərrüfatı, ərzaq və digər məhsullar muxtar respublikaya daxil olmadan geri qaytarılıb. Həmin malların geri qaytarılması, əsasən, üzərində istehlak tarixinin olmaması və ya istehlak müddətinin bitməsi, keyfiyyətsiz və ya xarab olması, mənşəyin məlum olmaması, tərkibində nitratın miqdarının normadan artıq olması kimi səbəblərlə bağlı olub. Ümumilikdə, ayrı-ayrı vətəndaşlardan saxlanılan 2 tondan artıq məhsul isə yuxarıda qeyd olunan səbəblər əsas götürülərək məhvetmə komissiyası tərəfindən məhv edilib.

Komitə sədri qeyd edib ki, cari ilin birinci yarısında işdə nöqsanlara yol vermiş 130 əməkdaş intizam məsuliyyətinə cəlb olunub. 32 əməkdaşa xidməti intizam qaydalarının tələblərini pozduğuna, 98 əməkdaşa isə auditin nəticələrinə görə intizam tənbehi tətbiq edilib.

Kollegiya iclasında gömrük orqanlarının maliyyə fəaliyyəti və xarici ticarətin vəziyyəti, eləcə də hüquqpozmalara qarşı mübarizə istiqamətində görülmüş işlərlə bağlı çıxışlar və "Naxçıvanterminalkompleks" Birliyinin yarımillik fəaliyyətinə dair hesabat dinlənilib.

Kollegiya iclasına yekun vuran komitə sədri "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili"ndə işdə məsuliyyət hissinin artırılmasının, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma halları ilə mübarizə, eləcə də daxili bazarın qorunması istiqamətində tədbirlərin gücləndirilməsinin, elektron xidmət və ödənişlərdən istifadənin stimullaşdırılmasının, maarifləndirmə və profilaktika tədbirlərinin davam etdirilməsinin, vətəndaşların müraciətlərinə vaxtında baxılmasının vacibliyini vurğulayıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Seçkilər azad və şəffaf şəkildə keçirilib

*Avqustun 6-da 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilər keçirilib. Seçki prosesini müşahidə etməyə getməzdən öncə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında seçkiyə qədər görülən işlər barədə məlumat aldıq.*

Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 iyun 2016-cı il tarixli Sərəncamı ilə 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilər təyin edildikdən sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq olunmuş “45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”na əsasən həm dairə, həm də məntəqə seçki komissiyalarının bütün fəaliyyəti “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa və həmin plana uyğun təşkil edilib.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 27.1-ci maddəsinə uyğun olaraq seçicilərin orta təmsilçilik norması nəzərə alınmaqla, 45 saylı Aza seçki dairəsi təşkil olunub və qanunamüvafiq olaraq seçki gününə 55 gün qalanadək dairə seçki komissiyasının tərkibi püşkatma yolu ilə müəyyən edilib.

Dairə seçki komissiyası fəaliyyətə başladıqdan sonra qanunun 32-ci və 33-cü maddələrinə müvafiq olaraq əhatələrinə daxil olan ərazilərdə seçicilərin sayını və onların rahat səsvermələrinin təmin olunmasını nəzərə alaraq seçki gününə 35 gün qalanadək 14 seçki məntəqəsi, 30 gün qalanadək isə hər biri 5 nəfərdən ibarət olmaqla, məntəqə seçki komissiyalarının tərkiblərinin formalaşdırılması başa çatdırılıb.

Mərkəzi Seçki Komissiyası tərəfindən dairə və məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi məqsədilə seminar-müşavirələr keçirilib, onlara hüquqi, metodik, texniki-təşkilati köməklik göstərilib, seçici siyahıları, seçki bülletenləri və digər lazım olan sənədlərin vaxtında hazırlanıb müvafiq seçki komissiyalarına çatdırılması təmin edilib.

Seçki prosesində ilkin mərhələ kimi qeyd olunan seçici siyahılarının dəqiqləşdirilməsi prosesi 45 saylı Aza seçki dairəsi və onu əhatə edən 14 mülki və 2 qapalı seçki məntəqəsi üzrə müvəffəqiyyətlə aparılaraq başa çatdırılıb və seçici siyahısı təsdiq edilib. Siyahıya əsasən 45 saylı Aza seçki dairəsi üzrə seçicilərin sayı 6049 nəfər olub.

45 saylı Aza seçki dairəsindən Ali Məclisə seçkilər üzrə namizədliklərin irəli sürülməsi kampaniyası da uğurla həyata keçirilib. Bu proses zamanı vətəndaşlar tərəfindən nə dairə seçki komissiyasına, nə də Mərkəzi Seçki Komissiyasına heç bir şikayət daxil olmayıb, bu seçki hərəkətləri nöqsansız yerinə yetirilib.



45 saylı Aza seçki dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə namizədliyini irəli sürmək istəyən 3 nəfər seçki komissiyasına tələb olunan sənədləri təqdim edərək imza vərəqələri götürüb, onların hər üçü qanunla müəyyən olunmuş müddətdə imza vərəqələrini və onlara əlavə olunan digər sənədləri dairə seçki komissiyasına təqdim edərək namizədlikləri qeydə alınıb.

Onlardan partiya mənsubiyyətinə görə 1 nəfəri bitərəf, 2 nəfəri isə Yeni Azərbaycan Partiyasının üzvüdür.

Sonra bir neçə məntəqədə olduq, məntəqə seçki komissiyası üzvləri, seçicilərlə görüşdük. Görülən tədbirlərin seçkilərin azad və demokratik şəraitdə keçirilməsində, seçicilərin öz iradələrini müstəqil şəkildə ifadə etməsində mühüm əhəmiyyət daşıdığını müşahidə etdik.

Nəsirvaz kəndində yerləşən 45-10 saylı məntəqə seçki komissiyasının sədri Hikmət Xəlilov dedi:

– Məntəqəmiz təşkil olunduğu gündən etibarən seçkilərə hazırlıq işlərinə başlanılıb və seçki günü seçicilərin sərbəst, birbaşa və şəxsi səsvermə yolu ilə öz seçimlərini etmələri üçün hər bir şərait yaradılıb. Gördüyünüz kimi, məntəqəmiz müasir standartlara cavab verən Nəsirvaz kənd tam orta məktəbinin yeni tikilmiş binasında yerləşir, eyni zamanda daşınan və daşınmaz seçki qutuları, səsvermə kabinələri və hər cür seçki material və avadanlıqları ilə təchiz olunub. Məntəqənin həyətində yerləşən xüsusi lövhədə seçicilərin öz adlarını müəyyənləşdirəcəkləri seçici siyahısı asılıb ki, hər bir seçici öncə bu siyahıda öz adını tapır, daha sonra məntəqəyə daxil olur. Girişdə komissiya üzvü seçicini qarşılayır və şəxsiyyət vəsiqəsini yoxlayır. Şəxsiyyət vəsiqəsi və ya qanunla müəyyən olunmuş qaydada onu əvəz edən sənədi təqdim etməyən seçici məntəqəyə buraxılmır. Şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənədi təqdim edən seçici



məntəqəyə daxil olur və komissiya üzvlərinin oturduğu yerə yönləndirilir. Seçki komissiyasının müvafiq üzvü seçicinin adını seçici siyahısında tapdıqdan sonra adının önündəki müvafiq qrafaya şəxsiyyət vəsiqəsinin seriya və nömrəsini yazır və seçici imza yerini imzaladıqdan sonra komissiya üzvü tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə bülletenin nömrələnmiş yuxarı sol küncü kəsilir və həmin möhürlənmiş bülleten seçiciyə verilir. Bundan sonra seçici səsvermə kabinəsinə yönəlir və burada istədiyi namizədə səs verdikdən sonra kabinədən çıxır. Bu mərhələdə seçici bülleteni şəffaf seçki qutusuna atır və məntəqəni dərhal tərk edir.

Əgər seçici öz adını seçicilər siyahısında tapmasa, bu zaman seçicinin səsvermə hüququnu yoxlayan məntəqə seçki komissiyasının üzvü həmin seçiciyə izah edir ki, adının siyahıya salınması üçün məntəqə seçki komissiyasının sədrinə, yəni mənə müraciət etsin. Seçicinin adının əlavə seçici siyahısına salınıb-salınmaması məsələsi yalnız məntəqə seçki komissiyasının qərarı əsasında həyata keçirilir. Seçicinin adının əlavə seçici siyahısına salınması üçün seçki məntəqəsinin ərazisində müvafiq polis orqanları tərəfindən verilmiş daimi və ya müvəqqəti qeydiyyatda olmasını təsdiqləyən sənəd olmalıdır.

Seçkilərin şəffaf və demokratik prinsiplər çərçivəsində keçirilməsi üçün vaxtında aparılan maarifləndirici tədbirlər öz bəhrəsini verib. Seçkilər zamanı hər bir səsin həlledici olduğunun fərqində olan seçicilərimiz bu seçkidə də yüksək fəallıq göstərirlər. Komissiya üzvlərimiz də vəzifə bölgüsünə əsasən, öz vəzifələrini yerinə yetirməklə seçicilərin rahat və maneəsiz bir şəkildə seçkidə iştiraklarını təmin edirlər.

Tivi kəndində yerləşən 45-8 saylı məntəqə seçki komissiyasının katibi Rza Adıgözəlov bizimlə söhbət zamanı bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə əlavə seçkilərin keçirilməsi qanunvericiliyin tələblərinə uyğun olaraq təşkil edilib. Seçki məntəqəsində yüksək fəallıq müşahidə olunur. Məntəqəmizin müasir üslubda tikilmiş binada yerləşməsi, seçki prosesi ilə bağlı hər cür inventar və avadanlıqlarla təchiz olunmağımız və təkmilləşdirilmiş seçki sistemi komissiya üzvlərinin öz fəaliyyətini nöqsansız şəkildə həyata keçirməsinə şərait yaradır. Seçkilərin müvəffəqiyyətlə keçirilməsi və seçicilərin öz iradələrini sərbəst və müstəqil şəkildə ifadə edə bilmələri üçün komissiya üzvləri arasında vəzifə bölgüsü aparılıb. Girişdə seçiciləri qarşılayan, seçici siyahısında qeydiyyat aparan, seçki kabinəsi və seçki qutusuna nəzarət edən komissiya üzvlərimiz, komissiya sədri və mən seçicilərin rahat və sərbəst şəkildə seçkidə iştiraklarını təmin etmək üçün vəzifəmizi yüksək səviyyədə həyata keçirməyə çalışırıq.

Sabirkənd və Baş Dizə kəndlərini əhatə edən 45-3 saylı seçki məntəqəsində ilk dəfə səs verən Nihad Mehdiyev dedi:

– Seçkilərdə ilk dəfə iştirak etdiyimə görə çox həyəcanlıyam. Demokratik bir ölkənin vətəndaşı olaraq seçki hüququmdan sərbəst bir şəkildə istifadə etdim. Şəxsi seçimimi etmək mənə həm məsuliyyət, həm də qürur hissini bir yerdə yaşadır. Demokratiyanın güzgüsü olan seçki prosesində iştirak etmək hər bir şəxs üçün əlamətdar bir hadisədir. Bu baxımdan 6 avqust 2016-cı il tarixi mənim həyatımda əhəmiyyətli bir gün olaraq öz yerini tutacaqdır.

Aza kənd tam orta məktəbində yerləşən 45-2 saylı seçki məntəqəsində ilk dəfə səs verən seçici Vüsalə Qardaşova ailəsi ilə birlikdə seçkiyə gəlmişdi. Onun dediklərindən:

– Bu gün seçkidə ailə üzvlərimlə birlikdə iştirak etdim. Hər birimiz öz layiqli namizədimizə səs verdik. Məntəqədə tam bir bayram əhval-ruhiyyəsi var. Mən tam əminliklə deyə bilərəm ki, hər kəs bizim kimi istədiyi namizədə səs verir. Məntəqədə bizi gülərüzlə qarşılayan komissiya üzvlərinə və öz seçimimizi kənar təsir olmadan sərbəst şəkildə etməyimiz üçün hər cür şəraitin yaradılmasında əməyi olan hər bir şəxsə minnətdarlığımızı bildirirəm. Bu prosesdə öz işlərini peşəkarlıqla həyata keçirən komissiya üzvləri seçkinin obyektivliyinə olan inamımızı daim artırır.

Gilançay kəndində yerləşən 45-4 saylı seçki məntəqəsinin ən yaşlı seçicisi Əli Fərəcov seçkinin gedişi ilə bağlı öz fikirlərini bizimlə belə bölüşdü:

– Bu günə qədər çox seçkilərdə iştirak etmişəm. Onu deyə bilərəm ki, ölkəmizdə demokratik seçki sisteminin qurulması bu seçkiləri müstəqillikdən əvvəlki seçkilərdən müsbət mənada çox fərqləndirir. Ən mühümü odur ki, həm komissiya üzvləri seçki sistemini gözəl bilirlər, həm də seçicilər artıq sərbəst şəkildə səsvermənin və hər bir səsin əhəmiyyətinin fərqindədirlər. Buna görə də mənim ailə üzvlərim kimi bizim kəndin seçiciləri də bu seçkidə fəal şəkildə iştirak edirlər.

Səsvermə günü getdiyimiz bütün seçki məntəqələrində komissiya üzvlərinin peşəkarlığı, seçki nizam-intizamı və seçici fəallığı ilə rastlaşdıq.

Səsvermə prosesinin sonunda Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası ilə əlaqə yaratdıq. Səsvermə prosesinin sonu, yəni saat 19[00]-a olan məlumata əsasən, 45 saylı Aza seçki dairəsi üzrə 6049 seçicidən 4828-i seçkidə iştirak edib. Bu, səsvermə prosesində seçicilərin fəallığının göstəricisidir.

Verilən məlumata əsasən, 45 saylı Aza seçki dairəsini əhatə edən 16 seçki məntəqəsinin hamısında seçki baş tutmuş hesab edilib.

**Muxtar MƏMMƏDOV**

# Əmək yarmarkasında 40 işaxtaran vətəndaşa göndəriş verilib

***Əhalinin maddi rifah halının yüksəlişi ölkəmizin davamlı iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Bu inkişafı xarakterizə edən əsas xüsusiyyətlərdən biri əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. İqtisadiyyatımızın davamlı olaraq möhkəmlənməsi şəraitində sosial-iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işgüzar fəallığın yüksəldilməsi istiqamətində atılan addımlar Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlərin əsasını təşkil edir.***

Bu baxımdan muxtar respublikada təşkil olunan əmək yarmarkaları mühüm məşğulluq tədbiri kimi əhəmiyyətli rol oynayır. Boş iş yeri təqdim edən müəssisələrin nümayəndələri ilə işaxtaran vətəndaşların birbaşa təmasına imkan verən əmək yarmarkaları vətəndaşların daimi işlə təmin olunmasına şərait yaradır. Növbəti belə əmək yarmarkası Naxçıvan şəhərində keçirilib.

Əmək yarmarkası həmişəki kimi Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində təşkil olunmuşdu. Naxçıvan şəhərində fəaliyyət göstərən müəssisələr tərəfindən təqdim olunan boş iş yerləri ilə tanışlıqdan əvvəl şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov çıxış edərək əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən danışdılar, işaxtaran vətəndaşların işlə təmin edilməsində əmək yarmarkalarının əhəmiyyətindən bəhs etdilər.

Sonra yarmarkaya gələnlər müxtəlif idarə, təşkilat və sahibkarlıq subyektlərindən təqdim edilən boş iş yerləri ilə tanış oldular.

Əmək yarmarkasına müraciət edən işaxtaran vətəndaşların bir neçəsi ilə görüşüb söhbət etdik. Naxçıvan şəhər sakini Qalib Quliyev dedi ki, ixtisas sahibi olmadığıma görə indiyədək müxtəlif sahələrdə işləmişəm, eyni zamanda daha çox mövsümi işlərdə çalışmışam. Yarmarkaya müraciət etməyimin əsas səbəbi ondan ibarətdir ki, daimi işim olsun. Buradakı boş iş yerləri ilə tanış olduqdan sonra “Dizayn” Məhdud Məsuliyyətli Cəmiyyətində özümə uyğun iş tapdım. Elə bu gün həmin müəssisəyə müraciət edəcəyəm. Bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.



Digər şəhər sakini Vahid Əliyev isə buradakı boş iş yerləri ilə hələlik tam tanış olmadığını dedi, ancaq özünə müvafiq iş tapacağına inandığını bildirdi. Qeyd etdi ki, yaxın tanışlarından bir neçəsi hazırda məşğul olduqları işi məhz əmək yarmarkalarının vasitəsilə əldə ediblər. Buna görə də əmək yarmarkasına inamla gəldiyini söylədi. Həmsöhbətimiz bildirdi ki, belə yarmarkaların təşkil olunmasının ən böyük üstünlüyü ondadır ki, səni işə qəbul edəcək müəssisənin nümayəndəsindən iş haqqında ətraflı məlumat almaq imkanın olur. Eyni zamanda əmək yarmarkasına təqdim olunan iş yerlərinin əksəriyyəti daimi iş yerləridir. İşaxtaran vətəndaşlara belə bir şəraiti yaratdıqlarına görə minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, əmək yarmarkasına 69 təşkilatdan 558 boş iş yeri çıxarılmışdı. Yarmarkada 40 nəfərə işə göndəriş verildi.

**Xəbərlər şöbəsi**

# Cənubi Qafqazın qədim mədəniyyətində Naxçıvanın boyalı saxsı qablarının rolu

***2016-cı ilin may ayında Naxçıvan şəhərində mənim Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin professoru Vəli Baxşəliyev ilə görüşüm oldu. Biz onunla Naxçıvan Muxtar Respublikasında (Azərbaycan Respublikası) aparılan arxeoloji qazıntıların əhəmiyyəti və bu tədqiqatların Cənubi Qafqazın arxeoloji mədəniyyətlərinə dərin mədəni təsirini müzakirə etdik. Professor Baxşəliyev orta əsr və Son Tunc dövründə Azərbaycanın Naxçıvan bölgəsində hazırlanmış boyalı saxsı qablar barəsində özünün apardığı tədqiqatları barəsində fikirlərini bizimlə bölüşdü. Aşağıda siz mənim professor Baxşəliyev ilə olan müsahibəmin birinci hissəsi ilə tanış ola bilərsiniz.***

***Peter TASE: Sizin tədqiqatlarınıza əsasən, Naxçıvan bölgəsində hazırlanmış boyalı saxsı qabların xüsusiyyətləri hansılardır?***

***Vəli BAXŞƏLİYEV:*** Naxçıvan üçün səciyyəvi olan Orta Tunc dövründə hazırlanmış boyalı saxsı qablara Cənubi Azərbaycanda (Urmiyada), Şimali Azərbaycanın Mil düzənliklərində, Anadolunun şimal-şərq regionlarında, Gürcüstan və indiki Ermənistan ərazilərində rast gəlinmişdir. Əgər biz boyalı saxsı qab nümunələrinin ümumi elmi qiymətləndirilməsini aparsaq, həmin qabların üzərindəki naxışların müxtəlifliyinə baxmayaraq, təsdiq edə bilərik ki, Urmiya gölü vadisində, Qafqaz dağlarının cənub hissəsində, Anadolunun şimal-şərqində və Mil-Muğan düzənliklərində bu saxsı qabların hazırlanması üçün ümumi mədəni şərait olmuşdur. Regionda aparılmış tədqiqatın nəticəsi və eyni zamanda regionun topoqrafik xüsusiyyətlərini nəzərə alsaq, region altı hissəyə: Trialeti mədəniyyəti, Təzəkənd mədəniyyəti, Sevan-Üzərliktəpə mədəniyyəti, Qızılburun mədəniyyəti, Naxçıvan mədəniyyəti və Van-Urmiya mədəniyyətinə bölünmüşdür. Baxmayaraq ki, burada altı müxtəlif mədəniyyət kateqoriyası mövcuddur. Biz fikirləşdik ki, daha münasib olar ki, bu altı mədəniyyəti dörd kateqoriyaya bölək. Bu üsulla mədəniyyətlərin hər birini öz fərqləndirici xüsusiyyətləri və sərhədləri ilə hərtərəfli araşdırmaq mümkündür.




***Peter TASE: Siz əlavə olaraq Sevan-Üzərliktəpə mədəniyyəti barəsində məlumat verə bilərsiniz?***

***Vəli BAXŞƏLİYEV:*** K.H.Kuşnaryevanın Sevan (Göyçə) bölgəsi, Mil düzənlikləri və Naxçıvan bölgəsində hazırlanmış boyalı saxsı qabları "Sevan-Üzərliktəpə mədəniyyəti" kimi adlandırmaq təklifi və bu mədəniyyətin Ararat vadisində yaranmasını iddia etməsi inandırıcı fakt deyil. K.H.Kuşnaryevanın bu qrupa daxil etdiyi mərkəzlər, nekropollar və yüksək dağlıq regionlarda olan yaşayış məskənləri ilə xarakterizə edilmişdir. Şimali Azərbaycanın Mil düzənliklərində yerləşən Üzərliktəpə bu qrupda özünü Orta Tunc dövrü mədəniyyətinin səciyyəvi xüsusiyyətlərinə nümunə olaraq göstərmişdir. Halbuki Üzərliktəpənin birinci və ən aşağı layları arasından tünd-qara rəngli saxsı qablar qazılıb çıxarılmışdır və orada heç bir rənglənmiş saxsı qablar müşahidə edilməmişdir. Bu yaşayış məskəninin ikinci qatında aşkar edilən monoxrom boyalı saxsı qablar göstərir ki, tapılan bu saxsı qablar Orta Tunc dövrünün son dövrünə aiddir. Bu qrupa aid edilən yaşayış məskənləri yüksək dağlıq regionun dağ yamaclarında yerləşmişdir və tünd-qara rəngli saxsı qab məmulatları ilə səciyyələnir. Bu ərazi saxsı qab məmulatlarının istehsal paylanma mərkəzləri hesab edilə bilməz. Bizim fikrimizcə, Azərbaycanın şimalında yerləşən Üzərliktəpə yaşayış məskəni, Göyçə gölü hövzəsi və Ermənistanın digər yaşayış məskənləri və nekropolları üçün səciyyəvi olan dekorativ üsul Naxçıvan regionu, xüsusilə II Kültəpədə başlamışdır. Bu nadir dekorasiya üslubu Naxçıvan regionunda, xüsusilə də I və II Kültəpə yaşayış məskənlərində geniş istifadə edilmişdir. Şahtaxtı, Şortəpə və Nəhəcir yaşayış məskənlərində və onların nekropol ərazisində tapılan boyalı saxsı qablar təsdiq edir ki, bu boyama üsulu təkcə I və II Kültəpə yaşayış məskənləri ilə məhdudlaşmır. Digər tərəfdən Orta Tunc dövründən başlayaraq Naxçıvan Muxtar Respublikasının yaşayış məskənlərində qazıntı zamanı aşkar edilən saxsı qabların inkişafı müxtəlif mərhələləri əks etdirir və bu inkişaf Dəmir dövrünə qədər fasiləsiz olaraq inkişaf etmişdir.

***Peter TASE: Təzəkənd (Karmir-Berd) mədəniyyəti Araz vadisi boyunca genişlənmişdir, bu mədəniyyətin bəzi xüsusiyyətləri hansılardır?***

***Vəli BAXŞƏLİYEV:*** Təzəkənd mədəniyyəti Orta Tunc dövrünə xas olan yerli xüsusiyyətləri təcəssüm etdirən başqa bir boyalı saxsı qablar qrupuna aiddir. Bu mədəniyyət Araz vadisindən başlayaraq indiki Ermənistanın yüksək dağlıq ərazisinin yamaclarına qədər olan əraziləri əhatə edir. Təzəkənd mədəniyyəti öz adını Təzəkənd nekropolunda qazıntılar zamanı aşkar edilmiş boyalı saxsı qablardan götürmüşdür. Təəccübləndirici və qeyd ediləsi bir haldır ki, bu günə qədər Təzəkənd mədəniyyətinə aid yaşayış məskəninin varlığı qazıntılarla ortaya çıxarılmamışdır. Bu mədəniyyətdə istifadə edilmiş bir-birini izləyən nazik spiralşəkilli üçbucaqlı və düzbucaqlı formalara, həmçinin Göytəpə, Haftavantəpə, Naxçıvan və Anadolunun şimal-şərqində rast gəlinib. Digər tərəfdən Orta Tunc mədəniyyətinə aid olan oymalar Arınc, Qarni, Mühannəttəpə yaşayış məskənlərində hələ də hərtərəfli öyrənilməmişdir. Bu səbəbdən də mədəniyyətlərin dövrləri barəsində hərtərəfli dəqiq nəticələr almaq mümkün olmamışdır.

Məlumdur ki, Təzəkənd mədəniyyətinə aid olan boyalı saxsı qablar yerli formalaşmadan çox II Kültəpə üçün səciyyəvi olan Boyalı saxsı qablar mədəniyyətinin təsiri altında olmuşdur. Zəngin və yüksək Orta Tunc dövrü mədəniyyətinə malik olan II Kültəpə regionunda mövcud olan yaşayış məskənlərinin mərkəz nöqtəsi olmuşdur. I Kültəpə və II Kültəpə kimi çox qüdrətli mədəniyyət mərkəzləri öz ətrafındakı yaşayış məskənləri ilə yaxın əlaqələr yaratmış və onlara təsir etmişdir. Mən istəmirəm qeyd edim ki, Kültəpə Orta Tunc mədəniyyətinin yaranmasının mərkəzi olmuşdur, lakin məlumdur ki, Orta və Son Tunc dövründə Boyalı saxsı qab mədəniyyəti daha çox sıx olaraq Araz çayı vadisində yaranmışdır.

***Peter TASE: Trialeti mədəniyyətinin Naxçıvanın arxeoloji məskənlərinə təsiri nədir?***

***Vəli BAXŞƏLİYEV:*** Gürcüstanın Çalkın regionu ilə bağlı olan və Cənubi Qafqazın müxtəlif regionlarına yayılmış olan Trialeti mədəniyyəti özünün tünd-qara rəngli, üzərində oyma üsulu ilə naxış açılmış qabları ilə xarakterizə edilir. Trialeti mədəniyyətinin ilk mərhələsi nekropol ərazilərdə təmsil edildiyindən ərazidə heç bir dulusçuluq məmulatı aşkarlanmamışdır. Bu mədəniyyətin ikinci mərhələsində üzə çıxan boyalı saxsı qab nümunələri yalnız varlı, əsilzadə və hakimiyyətə rəhbərlik edən şəxslərin qəbirlərində tapılmışdır. Bunun əksinə olaraq Naxçıvan, Ermənistan və Anadolunun şimal-şərqində olan boyalı saxsı qablara yalnız yuxarıda sadalanan təbəqələrin qəbirlərində deyil, sadə insanların da qəbirlərində rast gəlinmişdir. Şübhəsiz, bu cür saxsı qabların çox rast gəlindiyi region Anadolunun şimal-şərq yaylasındakı qəbirlərdə olmuşdur. Lakin indiyə qədər məlum deyil ki, görəsən, regionun yerli insanları tərəfindən qeyri-qanuni yolla qazıntılar aparılarkən yaşayış məskənlərində boyalı saxsı qablara rast gəlinmişdir, yoxsa yox? Trialeti mədəniyyətində sıx rast gəlinməyən boyalı saxsı qablara bu regionun yalnız cənub hissələrində rast gəlinir. Aşkar olunmuş məhdud sayda olan boyalı saxsı qablara əsaslanaraq bəzi tədqiqatçılar qeyd edirlər ki, Trialeti mədəniyyəti Van, Naxçıvan və Urmiya gölü regionuna yayılmışdır. K.H.Kuşnaryevanın qeyd olunan təklifinin əksinə olaraq Urmiya gölü vadisində, Naxçıvanda və şimal-şərqi Anadoluda aşkar edilmiş boyalı saxsı qablar forma və naxışlarına görə Trialeti mədəniyyətinə aid monoxrom boyalı saxsı qablardan fərqlənmiş və geniş yayılma ərazisinə malik olmuşdur. Trialeti mədəniyyətinin boyalı saxsı dulusçuluq qabları qonşu icmaların mədəniyyətlərini özündə aydın şəkildə əks etdirir. Əlavə olaraq Trialeti kurqanlarında tapılan materiallar burada Anadolu və Van-Urmiya regionlarının təsirinin olduğunu göstərir.

Trialeti kurqanlarında qazıntı zamanı aşkar olunmuş kiçik sayda olan boyalı saxsı qablar digərlərindən öz naxışlarına görə fərqlənir və bir daha burada Anadolunun böyük təsirinin olduğunu göstərir. Təəssüf ki, bəzi alimlər boyalı saxsı məmulatlarında Cənubi Qafqazın müəyyən hissələrində, Orta Tunc dövrünün qədim Kür-Araz ənənələri ilə bu regiona sonradan gələn sakinləri arasında sintez ideyasının olduğunu qəbul edir. Trialeti mədəniyyətində boyalı qab nümunələri qəbilə rəhbərlərinin qəbirlərində aşkar edilmişdir. Belə görünür ki, həmin materiallar idxal olunmuşdur. Nəticə etibarilə məlumdur ki, Trialeti bu qabların yayıldığı bölgənin şimal sərhədlərini formalaşdırmış, lakin bu məmulatların istehsalı və paylama mərkəzi olmamışdır.

**Peter Tase**
***29.07.2016***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" və "Eurasia review" qəzetləri***

***Avqustun 4-də Şərur rayonunun Dərəkəndində yaşayan Həsənovlar ailəsi dünyaya gələn 3 uşağın sevincini yaşayıb. Uşaqlardan ikisi qız, biri oğlandır. Naxçıvan Doğum Mərkəzində dünyaya göz açan uşaqların və ananın səhhəti qənaətbəxşdir.***

# Naxçıvanda üçəm uşaq dünyaya gəlib



Avqustun 6-da bununla bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov üçəm uşaqların dünyaya gəlməsi münasibətilə ailəni təbrik edib.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildiriblər ki, muxtar respublikada bərqərar edilmiş sosial-iqtisadi inkişafı region əhalisinin maddi vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, ana və uşaqların sosial müdafiəsinin təmin olunmasında da görmək mümkündür. Dövlətimiz tərəfindən ana və uşaqların sağlamlıqlarının qorunması, onların müalicəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bütün bunlar insanlar tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilməklə yanaşı, həm də tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə və demoqrafik vəziyyətin yaxşılaşmasına müsbət təsirini göstərir.

Tədbir iştirakçıları ailəyə hədiyyələr təqdim ediblər. Qeyd edək ki, ailənin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ünvanlı sosial yardım təyin olunub. Anaya kömək məqsədilə uşaqlara baxmaq üçün əlavə həkim ayrılıb.

Yeni doğulan uşaqların anası Lalə Həsənova onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

**Telli MUSTAFAYEVA**

# Ağac üzərində oyma sənəti yaşadılır



***Bu gün xalq yaradıcılığı nümunələri adlandırdığımız min illərin sınağına sinə gərmiş sənətlər və bu işlə məşğul olan sənətkarların yaratdıqları əcdadlarımızın bizə mirası, vəsiyyəti, öyüd-nəsihətidir. Təbii ki, bu mirasa sahib çıxmaq, vəsiyyətə əməl etmək, öyüd-nəsihətə qulaq asmaq bugünkü nəslin mənəvi borcudur. Xalqımız yaradıcı xalqdır. Bunu günümüzə gəlib çatmış, xalqın zəngin təfəkkürünün və təxəyyülünün məhsulu olan xalq yaradıcılığı nümunələri, yazılı və şifahi xalq ədəbiyyatı inciləri sübut edir.***

Hazırda muxtar respublikada müxtəlif sənət növləri ilə yanaşı, ağacoyma sənətinin yaşadılmasına xüsusi diqqət yetirilir, bu sənətlə məşğul olan sənətkarlara dövlətimiz xüsusi qayğı göstərir, onlar üçün emalatxanalar yaradılır, maddi-texniki təminat yaxşılaşdırılır, belə sənətkarların əl işlərinin nümayiş etdirilməsi üçün tez-tez sərgi-satışlar təşkil edilir. Muxtar respublikada ağacoyma sənəti ilə çox sayda sənətkar məşğul olur. Onlardan biri də Akif Həsənovdur. Ötən günlərdə sənətkarın emalatxanasında olduq, iş şəraiti ilə maraqlandıq, ərsəyə gətirdiyi sənət əsərlərinə tamaşaçı gözü ilə baxdıq.

Akif usta dedi ki, xəttatlıq, nəqqaşlıq, xarratlıq və rəssamlıqla bağlı olan ağacoyma olduqca çətin bir sənətdir. O, insandan səbir, bacarıq, güclü yaddaş və eyni zamanda ideya tələb edir. Elə etmək lazımdır ki, hər şey ölçüsündə, tarazında, yerli-yerində olsun. Diqqətcil olmayan, təxəyyülünü, xəyal gücünü işə salmayan insan bu sənət növündə uğur qazana bilməz.

Çoxları belə düşünür ki, quruca odun parçasıdır, qoyursan qabağına, müxtəlif eskizlər, üsullar tətbiq edirsən, olur sənət əsəri. Əsla elə deyil. Bir sənət əsərini yaratmaq üçün bəzən günlərlə düşünmək, gözlərin önünə tamamlanmış əsəri gətirmək lazım olur. Bu sənətdə orijinal fikirlər və üslublar axtarıb-tapmaq məsələnin ən vacib tərəflərindəndir.

Ağac var ustadan yumşaqlıq, mülayimlik tələb edir, ağac var sərtlik. Ağac var ki, tez bir zamanda istənilən şəklə salmaq olur. Ancaq ağac da var ki, çox çətin "ipə-sapa yatır", insanın səbrini imtahana çəkir, istədiyin nəticəni əldə etmək çox çətin olur. Bundan başqa, hər bir ağacın öz naxışı, öz gözəlliyi var. Bu gözəlliyi duyub, hiss etmək lazımdır. Əgər qarşındakı ağacın, belə demək mümkünsə, səndən nə istədiyini hiss edib duya bilmirsənsə, demək, o da sənə istədiyini verməyəcək.

Bu sənətlə məşğul olandan hər zaman davamçılarım olub. Hər hansı bir usta deyirsə ki, bu sənətə gənclər maraq göstərmir, nə qədər çalışıramsa, onları cəlb edə bilmirəm, məncə, o sənətkar əvvəlcə öz zəifliyini ortaya qoyur. Yaxşı, işini bilən usta öz əl işləri ilə davamçısını qazanır. Yəni ola bilməz ki, yaxşı ustanın əl işi heç kimi bu sənətə cəlb etməsin, çağırmasın. Qaldı bu sənətin sirlərini öyrətməyə, bax onda yaxşı usta bilik, təcrübə kimi zəngin xəzinəsinin qapılarını öz davamçısının üzünə açmalı, ondan heç bir şeyi gizlətməməli, davamçısı ilə ağacların dili ilə danışmalıdır. Yoxsa həmin davamçının gələcəkdə yaxşı bir usta olması mümkünsüz olar. Mənə müraciət edən hər kəsə məmnuniyyətlə bu sənəti öyrətmişəm və öyrətməyə də davam edirəm. Sənətimi davam etdirənlərdən biri elə öz oğlum Şahindir. Əl işlərinin bəzilərini onunla birgə işləmişəm. Burada, Naxçıvan Biznes Mərkəzinin xalq yaradıcılığı emalatxanasında bu nadir sənət növünün tədrisini həyata keçirirəm. Həvəsi olan, bu işi öyrənmək üçün mənə müraciət edən insanlara təmənnasız olaraq bu sənətin sirlərini öyrədirəm. Çox sevinirəm ki, gələcəkdə sənətimi yaşadacaq davamçılarım olacaq.

"Təbiət ən yaxşı sənətkardır", – deyirlər. Çünki ondakı cansız daş parçası da, yamyaşıl, naxış-naxış yarpaqlardan süzülüb düşən bir yağış damlası da, bir ağac tikəsi də böyük ustalıqla hazırlanmış sənət incisi kimi insanoğlunu daim valeh edib.

"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunan Akif usta deyir ki, göstərilən qayğıdan ruhlanaraq yeni-yeni nümunələr yaratmağa səy göstərir, sərgilərdə və el bayramlarında iştirak edir, əl əməyi, göz nuru olan məhsulları nümayiş etdirir. Müxtəlif sərgilərdə onlarla əl işinin sərgilənməsi, onlara tamaşaçılar tərəfindən böyük maraq göstərilməsi onun üçün ən böyük mükafatlardan yalnız biridir.

✍ **Fatma BABAYEVA**

*Hər kəs yüz il yaşamasa, günah onun özündədir. Bu qənaətlə çox tez-tez rastlaşırıq. Xüsusilə də uzunömürlü insanlardan bəhs edən veriliş və məqalələrdə. Təbii ki, insan özünə nə qədər qayğı göstərsə, sağlamlığına, qidalanmağına diqqət yetirsə, yaşamaq şansı bir o qədər də artar. Əlbəttə ki, o uzunömürlülük Allah-Taala tərəfindən həmin şəxsin alnına yazılıbsa. Bəli, çox yaşamaq üçün İlahinin həmin ömrü sənə hədiyyə etməyi vacib şərtdir. Hansı ki firavan, rahat həyat sürməyən bəzi insanlara da Allah yaşamdan pay verir, ömrünə ömür qatır. Bunlardan biri də dünyaya göz açdığı gündən əzab-əziyyətlərlə üzləşən, keşməkeşli həyat sürən Şərur rayon Kürçülü kənd sakini Qönçə Hümbətovadır. Üzündəki qırışlara illərin yorğunluğu həkk olunan 118 yaşlı bu nənə muxtar respublikamızın ən yaşlı sakinidir.*

# Hər kəs yüz il yaşamasa...

## Muxtar respublikanın ən qocaman sakininin 118 yaşı var

Qönçə Hümbətova 1898-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Qədirli kəndində anadan olub. 1905-ci ildə ermənilərin Qədirli kəndini talan etməsindən sonra o, anası ilə birlikdə Naxçıvana gələrək burada məskunlaşır. Doğulduğu gündən bəri çətin şəraitdə yaşayan bu qadın hardan biləydi ki, hələ qarşıda bundan da əzablı günlər onun yolyoldaşı olacaq. O, 9 yaşında ikən anasını itirir. Kənddə xeyirxah insanlar kimi tanınan Mahmud kişi və Şəkər arvad onu öz himayələrinə götürür, övladları kimi qoruyub nəvaziş göstərirlər. 40-cı illərdə Qönçə Hümbətovanın ailəsi Qazaxıstana sürgün edilir. Üç il burada sürgün olduqları müddətdə çox çətin, hətta səfil vəziyyətdə yaşayan ailənin 4 üzvü acından ölür – ailə başçısı və 3 oğlan övladı.

Üç əsrə şahidlik etmiş Qönçə Hümbətova səhhəti ilə əlaqədar çox danışa bilmədiyindən bir qədər susur. Oğlu Məhəmməd Səfərov deyir ki, ailə üzvlərini itirdikdən sonra anası ilə birlikdə 1943-cü ildə Ağdama qayıtdıqları zaman yolboyu anasının gözü yol çəkib, acı taleyi, yaşadıqları həyat bir kinolent kimi beynində canlanarkən gözlərindən axıb ya-



naqlarına süzülən göz yaşlarını daha içində tuta bilməyib. Həyatda qalan tək övladını bağrına basaraq ünvana çatanacan ağlayıb.

1948-ci ildə Məşədi Qurbanla ailə qurduqdan sonra onlar 1954-cü ilə kimi burada yaşayıblar. Bundan sonra onun həyatı tədricən yaxşılığa doğru davam edib.

Hazırda qocalığın əldən saldığı, danışmaqda, fikirlərini ifadə etməkdə çətinlik çəkən nənənin bədənindəki ağrılardan şikayətləndiyi zaman, yəqin, dərman qəbul etməyinin vaxtıdır, – deyə düşündüm və doğrusu, düşüncəmi ətrafdakılara da bildirdim. Lakin məlum oldu ki, bu qadın indiyəcən bir dənə də olsun, dərman qəbul etməyib. Yəni müəyyən bir yaşına kimi səhhəti baxımından heç bir ciddi problemi olmayıb, sonrakı illərdə də bu adəti pozmadan yaşamağa davam edib. Hazırda səhhətində olan problemlər isə sadəcə, yaşından qaynaqlanır ki, o, bir çox yaşlılar kimi təzyiq və diabet xəstəliyindən deyil, yeriyə bilməməsindən şikayətlənir.

Qönçə nənənin tək bir oğul övladı həyatda qalsa da, Tanrı ona çox böyük bir ailə – 4 nəvə, 8 nəticə və 16 kötücə nəsib edib. Hazırda 118 yaşın özünü göstərdiyi, nəvazişə ehtiyacı olan bu qadın həmin mehriban ailənin qayğısı ilə əhatələnib. Bununla yanaşı, dövlətimiz də öz diqqət və qayğısını bu qocaman qadından əsirgəmir. Bildiyimiz kimi, muxtar respublikamızda yaşayan uzunömürlü insanların sosial problemlərinin həlli, onların yaşayış şəraitlərinin yaxşılaşdırılması, həmçinin yubileylərinin keçirilməsi istiqamətində daim tədbirlər həyata keçirilir. Qönçə Hümbətovanın ailə üzvlərinin bildirdiyinə görə, Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin əməkdaşı Həcər Hüseynova bu yaşlı qadına tez-tez baş çəkir, ehtiyacları ilə maraqlanır, həmin ehtiyacların mümkün qədər qısa bir vaxt ərzində təmin edilməsinə çalışır. Hər il onun doğum günü qeyd edilir, yubileyləri isə xüsusi təntənə ilə keçirilir, səbəbkara müxtəlif hədiyyələr təqdim olunur. Muxtar respublikamızın qocaman sakini Qönçə Hümbətovanın oğlu Məhəmməd Səfərov anasına göstərilən bu qayğıdan razılığını bildirdi, ona qarşı diqqət göstərən insanlara da Allah-Taalanın belə uzunömürlü bir həyat nəsib etməsini arzuladı.

**✍ Fatma BABAYEVA**

# Naxçıvan şəhər çimərliyi yay mövsümünün əsl istirahət məkanlarındandır



***Yayın isti günlərində insanlar istirahət etməyə daha çox ehtiyac duyurlar. Bu zaman kimisi ucqar dağ kəndlərinə, təbiətin qoynuna, kimisi də ölkə xaricinə üz tutmaqla bu ehtiyacını təmin etməyə çalışır. Digər tərəfdən qeyd etmək lazımdır ki, əhalinin həyat səviyyəsi yüksəldikcə insanların istirahət etmək imkanları daha da artır. Təbii ki, son illərdə ölkəmizə, eləcə də muxtar respublikamıza üz tutan turistlərin sayının artması, paralel olaraq yeni istirahət məkanlarının yaradılmasını zəruri edib. Bu baxımdan muxtar respublikada həyata keçirilən tədbirlər fərqli turizm məkanlarının fəaliyyətə başlamasına imkan verib ki, bu da özünəməxsus təbiət gözəllikləri ilə seçilən Naxçıvanda insanların istirahətinin daha səmərəli təşkili üçün düşünülüb.***

Son illərdə yerli sakinlərin, eləcə də bu qədim diyara yolu düşən qonaqların ən çox üz tutduğu ünvanlardan biri də Naxçıvan şəhəri yaxınlığında yerləşən Uzunoba Su Anbarında yaradılmış çimərlikdir. İki il bundan əvvəl – 2014-cü ildə istifadəyə verilən çimərlik Naxçıvanda bu istirahət növünə olan ehtiyacın ödənilməsində mühüm rol oynayır. Ölkəmizin digər regionları ilə müqayisədə su mənbələrinin azlığı və quru kontinental iqlimə malik olması ilə seçilən muxtar respublikada çimərliyin yaradılması regionda həyata keçirilən tədbirlərin məqsədyönlülüyünü bir daha ortaya qoyur. Buna görə də adıçəkilən çimərliyin yaradılması, burada insanların rahatlığı üçün lazımi şəraitin təmin edilməsi hər kəs tərəfindən razılıqla qarşılanır.

Qeyd edək ki, çimərliyin ümumi sahəsi 14 min 850 kvadratmetrdir. Burada həm böyüklər, həm də uşaqlar üçün çimərlik sahələri nəzərdə tutulub. Uşaqlar üçün çimərliyin uzunluğu 30 metr, eni 15 metr, dərinliyi isə 70 santimetrdən 120 santimetrədəkdir. Böyüklər üçün zolağın uzunluğu isə 255 metr, eni 20 metrdir. Dərinlik 2-4 metr arasında dəyişir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub. Bundan əlavə, çimərliyə gələnlər üçün burada hərtərəfli şərait yaradılıb. Sahilboyu günlüklər qoyulub, paltardəyişmə yerləri, duş kabinələri fəaliyyət göstərir. Çimərlik istirahət zonasında su və digər idman növləri üzrə məşğul olmaq istəyənlər də yaddan çıxarılmayıb. Su motosikletləri, velosipedlər, futbol və voleybol meydançaları idmansevərlərin asudə vaxtının səmərəli təşkili üçün nəzərdə tutulub. Burada ictimai iaşə xidməti də yaxşı təşkil olunub. Çimərliyə xidmət edən inzibati binada hərtərəfli şərait yaradılıb. Xidmətin səlahiyyətli nümayəndəsi Dalğın Hüseynov bildirdi ki, binada iş otağı, kafe, mətbəx, anbar və mağaza yerləşir. Burada müştərilərə, əsasən, yerli istehsal olan müxtəlif sərinləşdirici içkilər, dondurmalar, çay və kofe təqdim olunur. Eyni zamanda milli mətbəximizin çeşidli növlərindən təklif edilir. Müsahibimiz dedi ki, yaradılmış şərait bura yolu düşənlərin sayının artmasına səbəb olur. Şənbə və bazar, eləcə də həftəiçi günorta saatlarından sonra çimərliyə gələnlərin sayı daha da artır.

Burada Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, baş leytenant Rüfət Məmmədovla da həmsöhbət olduq. Müsahibimiz dedi ki, hazırda qrupumuzda 5 xilasedici və 1 həkim olmaqla xidmət aparırıq. Xidmət zamanı əməkdaşlarımız tərəfindən sahildəki nəzarət qülləsindən ətrafa davamlı nəzarət olunur, hər hansı qayda pozuntusu qeydə alınarsa, səsgücləndirici qurğu vasitəsilə xəbərdarlıq edilir. Xilasedici qrupun əsas vəzifələrindən biri də çimərlik üçün qadağan olunmuş digər sahillərə nəzarət etməkdir ki, həmin yerlərdən istifadə olunmasın. Buna görə həm də vətəndaşlar arasında maarifləndirici söhbətlər aparırıq. Təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkili xoşagəlməz hadisələrin qarşısının alınmasında mühüm rol oynayır.

Çimərlikdə bura istirahət üçün üz tutan insanlarla da həmsöhbət olduq. Naxçıvan şəhər sakini Zakir Hüseynov kiçik sahibkarlıqla məşğul olur və həftədə iki-üç dəfə yolunu buradan saldığını deyir: "Builki yay mövsümü çox isti keçir. Buna görə də həftəiçi tez-tez bura gəlirəm. İsti havada çimərlik insana xoş gəlir. Həm istidən "heyfini" çıxırsan, həm də dincəlirsən. Bu şəraiti yaradanlara öz minnətdarlığımı bildirirəm".

Rəcəb Hüseynzadə isə Şahbuz rayonunda hərbi xidmətdə olan övladının yanından qayıdarkən yolüstü dincəlməyə gəldiyini dedi: "Culfa rayonunda yaşayıram. Keçən il yaxın dostlarla bura gəlmişdik, çox bəyənmişdim. Bu il isə birinci dəfədir ki, gəlirəm. 1-2 saatlıq istirahət etmək imkanımızı burada dəyərləndirmək istəyirəm. İsti havada çimərliyin yerini heç nə verməz".

Burada istirahət edənlər içərisində İran İslam Respublikasından gələnlər də az deyildi. Həsən və Möhsün adlı qardaşlar ötən il ailə üzvləri ilə Naxçıvana gəldiklərini dedilər. Bu il isə vaxtları az olduğundan Naxçıvana ikigünlük səfər etdiklərini və səfər müddətində buradakı çimərliyi "yaddan çıxarmadıqlarını" bildirdilər.

*...Çimərlikdə olduğumuz müddətdə burada istirahət edən bir çox insanlarla söhbətləşdik. Həmsöhbət olduğumuz insanlar yaradılan şəraitdən, təşkil olunmuş təhlükəsizlik xidmətinin işindən razılıqla danışdılar. Ümumi gəldiyimiz nəticə isə bundan ibarət oldu ki, çimərliyə yolu düşən hər kəs buradakı xidmətdən, yaradılmış şəraitdən razıdır. Ən əsası isə odur ki, Naxçıvan şəhər çimərliyi fəaliyyət göstərdiyi qısa müddət ərzində həm yerli sakinlərin, həm də bu qədim diyara yolu düşənlərin istirahətini təmin edə bilib.*

**✍ Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Dövlət Universitetinin tələbəsi Səbrəli Məmmədovun "Rənglərin səsi" adlı fərdi rəsm sərgisi təşkil edilib.***

# "Rənglərin səsi" adlı rəsm sərgisi



Sərgiyə baxışdan əvvəl Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış edib, gənc rəssamın bacarıq və qabiliyyətindən söhbət açıb. Bildirilib ki, bu sahəyə böyük həvəsi olan Səbrəli Məmmədov tez-tez Rəssamlar Birliyinə müraciət edir, istedadlı rəssamların təcrübələrindən faydalanır, onlardan dəyərli məsləhətlər alır. Ülviyyə Həmzəyeva belə gənclərin istedadlarının üzə çıxarılması, cəmiyyətdə tanınması məqsədilə muxtar respublikanın yaradıcı təşkilatları üçün hərtərəfli şəraitin təmin edildiyini deyib.

Sənətşünas Nizami Alıyev tələbəsini təbrik edib, ona yaradıcılıq yolunda uğurlar arzulayıb. Gənclərin əsərlərindən ibarət olan ikinci sərginin də yüksək səviyyədə təşkil edildiyini deyən Nizami Alıyev istedadlı gənc rəssamın bundan sonra da maraqlı əsərlərlə tamaşaçılar qarşısına çıxacağına əminliyini ifadə edib.

Səbrəli Məmmədovun babası Allahverdi Nəbiyev öz nəvəsi ilə qürur duyduğunu, bundan sonrakı işlərində də onu daim dəstəkləyəcəklərini vurğulayıb. Nəvəsi də daxil olmaqla, gənclər üçün belə şəraitin yaradıcılarına, tədbirlərin təşkilatçılarına minnətdarlığını bildirib.

Daha sonra sərgiyə baxış olub.

Qeyd edək ki, sərgidə rəssamın kətan üzərində yağlı boya ilə çəkilmiş 40-a yaxın müxtəlif mövzulu əsərləri yer alıb.

**Xəbərlər şöbəsi**

# Mini-futbol turniri başa çatıb

***11 iyul-4 avqust tarixlərində Ordubad şəhər 3 nömrəli tam orta məktəbin futbol meydançasında mini-futbol üzrə Ordubad rayon birinciliyi keçirilib.***

Ordubad Rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının rayon bölməsinin birgə təşkil etdikləri birincilikdə 13 komandada 130 nəfər iştirak edib. Dairəvi sistem üzrə mini-futbol idman növünün ümumi qaydalarına uyğun keçirilən birincilik gərgin mübarizə ilə yadda qalıb.

Birinciliyin yekun nəticəsinə əsasən, bütün rəqiblərinə qalib gələn Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin "Araz" komandası birinci yerə layiq görülüb. Onlar final görüşündə "Gilançay" komandasını məğlub ediblər. Ordubad Rayon Texniki Peşə və Sürücülük Məktəbinin komandası isə üçüncü olub.

Sonda birinci, ikinci və üçüncü yerləri tutan komandalar təşkilatçılar tərəfindən diplom, kubok və hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

# Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Şərur rayonunun Çəmənli icmasının tender komissiyası icma qrupunun hazırladığı "Elektrik sistemlərinin təmiri və genişləndirilməsi" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

*Maraq məktubu;*

*nizamnamə;*

*maddi-texniki baza və insan resursları barədə məlumat;*

*son illərdə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması;*

*maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 15 avqust 2016-cı il, saat 18[00]-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Şərur rayonu, Çəmənli kəndi tender komissiyası icma qrupunun sədri: Vüqar Məmmədov***

***Əlaqə telefonu: (051) 984-55-65***

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 600